# 746 Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Humanitar Minadan Təmizləmə Təliminə dair Anlaşma haqqında Memorandumun təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

1. 2000-ci il avqustun 4-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Humanitar Minadan Təmizləmə Təliminə dair Anlaşma haqqında Memorandum **təsdiq edilsin.**

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 21 oktyabr 2000-ci il
№ 553

**Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Humanitar Minadan Təmizləmə Təliminə dair Anlaşma haqqında**

## MEMORANDUM

I. Məqsəd. Gürcüstan Respublikasında təşkil edilən və özünün də iştirak edəcəyi Ermənistan və Azərbaycan Minadan Zərərsizləşdirənlərinin 2000-ci il 18 sentyabr – 3 noyabr tarixində keçiriləcək birgə təliminə dair Bikroft Təşəbbüsünün (Proqram) planlaşdırılması və aparılması məqsədi ilə Azərbaycan Respublikası Hökuməti (ARH) və Amerika Birləşmiş Ştatları Hökuməti (ABŞH) arasında öhdəlik barədə anlaşmanın yaradılması.

II. Əhatəsi. Bu Anlaşma ABŞ Hökumətinin planlaşdırılmış Humanitar Minadan Zərərsizləşdirmə (HMZ) Təlimini hansı şərtlərə əsasən keçirəcəyini müəyyən edir. Aydınlaşdırılıb ki, Bikroft Proqramı əsasında Azərbaycan Respublikası Hökumətinə verilən ABŞ-ın vəsaitləri yalnız Humanitar Minadan Zərərsizləşdirmə əməliyyatlarına yardım edən məqsədlər üçün istifadə ediləcəkdir.

III. Etibarlı Tarix və Sazişin Müddəti. Bu Saziş Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası Hökumətləri tərəfindən iştirak edən nümayəndələr tərəfindən imzalandığı tarixdən qüvvəyə minir. Bikroft Proqramı əsasında keçirilən bütün təlim başa çatana qədər bu Saziş qüvvədə qalacaq və bu təlimdə iştirak edən bütün azərbaycanlı heyət 2000-ci il noyabrın 4-də Azərbaycana gətiriləcəkdir.

IV. Resurs Öhdəlikləri.

a. ABŞ Hökuməti bu Proqramın tam maliyyələşməsini, o cümlədən bütün xidmət və kömək edən qüvvələri, avadanlıq və materialları öz üzərinə götürəcək. Əlavə olaraq ABŞ Hökuməti bütün təlim keçən heyəti təlimatçılar, təlim materialları və bütün avadanlıqlarla təmin edəcək. ABŞ Hökuməti həmçinin Azərbaycandan olan bütün iştirakçıları Bakıdan (Azərbaycan) Gürcüstan Respublikasındakı Krtsanisi Hərbi Bazasına getmək üçün nəqliyyatla təmin edəcək. Təlim başa çatdıqdan sonra ABŞ Hökuməti Azərbaycandan olan bütün iştirakçı heyətin Bakıya nəqliyyatını da maliyyələşdirəcək.

b. Azərbaycan Hökuməti isə on beş (15) minadan zərərsizləşdirən, iki (2) tərcüməçi və üçdən (3) artıq olmayan müşahidəçi ilə təmin edəcək. Bu təlimdə Azərbaycan Hökuməti tərəfindən iştirak edən bütün heyətin Gürcüstan Respublikasında keçirilən təlimdə iştirak etməsi üçün lazımi icazə və vizaları olmalıdır. Bundan əlavə, Azərbaycan Hökuməti tərəfindən təlimi aparmağa təyin olunmuş və Bikroft Proqramında iştirak edəcək bütün heyətdən təyin edilmiş tarixdə gəlmələri və təlimin başa çatmasına qədər qalmaları gözlənilir. Həmçinin, heyət üçün tələb olunan bütün avadanlığın tam siyahısı Cəbhə Boyu Düzülmədən əvvəl Obyektin Öyrənilməsi müddətinə hazır olacaq. Bikroft Proqramı üçün Gürcüstan Respublikasına gətirilmiş bütün avadanlıq və materiallar gömrük xərclərinə, idxal rüsumlarına və digər vergilərə məruz qalmayacaqlar.

V. Etibarlı Tarix. Anlaşma haqqında bu Memorandum (AHM) aidiyyəti olan bütün tərəflərin imzaladığı gündən dəyişilənə, əvəz edilənə, xətm edilənə və ya sona çatana qədər qüvvədə qalır. Aşağıda imza edənlərin hamısı bu məktubda yazıldığı kimi bu yardım konsepsiyası ilə razılaşırlar. Bu sahədə dəyişikliklər və ya düzəlişlər bütün tərəflərlə razılaşdırılacaqdır.

VI. Azərbaycan Respublikası Hökuməti təsdiq edir ki, o, Anlaşma haqqında Memorandumda göstərildiyi kimi, Humanitar Minadan Zərərsizləşdirmə əməliyyatları məqsədi üçün ABŞ-dan Azərbaycan Respublikasına idxal edilən ABŞ-ın müxtəlif hərbi vəsaitlərinin/məlumatlarının son istifadəçisi olacaqdır. ABŞ Dövlət Departamentinin əvvəlcədən yazılı icazəsi olduğu hallardan başqa, qalan digər hallarda Azərbaycan Respublikası həmin vəsaitlərin və ya məlumatların hər hansı birini nə Azərbaycandan kənara (1), nə də hər hansı bir şəxsə (2) yenidən ixrac etməyəcək, yenidən satmayacaq və ya başqa cür istifadə etməyəcək.

Biz daha sonra təsdiq edirik ki, biz icazəli vəsaitlərdən/məlumatlardan yalnız anlaşma haqdakı bu Memorandumda göstərilmiş məqsədlər üçün istifadə edəcəyik.

VII. Bakı şəhəri, 4 avqust 2000-ci ildə imzalanmışdır.

**STƏNLİ T. ESKUDERO**
**Amerika Birləşmiş Ştatlarının Səfiri**

**ABİD ŞƏRİFOV**
**Azərbaycan Respublikası Baş nazirinin müavini**

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 oktyabr, № 10.- S.4297-4298.